

# Kitab yazanlar və satanlar

(esse)

***Nüfuzlu nəşriyyat, bookhause, ədəbiyyat nəşrləri və ekspertlərinin, 'Betsson" və 'Paf" kimi bukmeker firmalarının gözləntilərinin əksinə, ədəbiyyat üzrə 'Nobel" mükafatını yəhudi mənşəli fransız yazıçı Patrik Modiano aldı bu il (söhbət essenin yazıldığı 2014-cü ildən gedir - red.). Yəni daha çox kitab satmış Murakami, Kundera, Adonis, Filip Rott və başqaları qalib ola bilmədilər...***

Mətləbə daha dərindən keçməyə cəhd edək... Yazıçı "çox kitab satmağ"ı öz sözünün, mətnin daha çox oxunması, eşidilməsi anlayışı ilə eyniləşdirir. Çünki "satıcılığın" xüsusi bir növü olsa belə, "sözü satmağı" sevə bilməz.

İmza günlərindəki sxematiklik, növbətçi ifadələr, təbriklər, rəylər, müsahibələr, sonda boş zal, bir miqdar qələm haqqı, məclis, sağlıqlar, təbəssümlər və nəhayət, evə doğru tənha yolçuluq, səni rahat buraxmayan suallar: bunumu istəyirdin?

Halbuki ən çox əl çalınan yazına əvəzində səndən heç bir haqq tələb etməyən bir uşaq təbəssümü, ya da elə uşaqlar qədər məsum başqa bir simada faniliyin buraxdığı iz səbəb olmuşdu.

Qədimdə şifahi nitqə üstünlük verirdilər. Çünki nə vaxtsa deyildiyi kimi, sözlər yazılanda təkcə ruhunu itirmir, həm də bizi arxayın salır, həmin mətləblərin hardasa yaxında və əlçatan olduğuna inandırır. Və beləcə Qeys və Leylinin, Koroğlu və Həmzənin, Vronski və Annanın, Nagelin, Yuhannesin səhvləri, faciələri spiralvari şəkildə təkrarlanır.

***"Yəqin, insan islahata şəxsi islahdan gəlməyincə belə olacaq. İslah üçün isə yazılı mətnlərdən daha çox göndərilən və daim yadda saxlamalı olduğumuz mətnlər yararlıdır - insanların yazmadığı şifahi sözlər."***

Bunu anlamayınca dünyanı dəyişməyən, yalnız biri digərinin təkrarı olan kitablar yazılacaq, sonra da indiki kimi onları satmağın yolları axtarılacaq.

Və nəhayət, bir ağıllı adam çıxıb deyəcək ki, bazar və sənətin yolları ayrıdır. Tacir bazara yalnız tələb olunan qədər mal çıxardır, tələb təklifi doğurur, yəni.

Yazıçı isə tələbin səviyyəsini qaldıracaq təkliflə - mətnlə gəlir "bazara", uşaq sadəlöhvlüyü ilə təklifinin tələbi formalaşdıracağına inanır.

***Başqa bir ağıllı adamın sözünü xatırlayıram: "Əməllərimizin dünya ilə həmahəng, təzadlardan azad və ardıcıl olduğu, 'mən'imizin başqaları ilə yanaşı, nifaqsız addımladığı, mütləqin hakim, idealın əbədi, yerişlərin rəqs, sözlərin dua olduğu bir məkan bu yer üzündə mövcud deyil..."***

**Səlim Babullaoğlu**

Türküstan.- 2021.- 7-13 iyul.- S.23.